# Azərbaycan–Çin: iqtisadi əməkdaşlığın perspektivlərinə maraq artır



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına səfərindən sonra iki ölkə arasında iqtisadi münasibətlərin inkişaf perspektivlərinə bu sahə ilə bağlı mütəxəssislərin maraq və diqqəti artıb. Əvvəla, göstərmək lazımdır ki, Çin paytaxtında aparılan danışıqların, əldə edilən razılıqların və imzalanan sənədlərin yaratdığı daha əlverişli şərait iki ölkə arasında iqtisadi münasibətləri yeni səviyyəyə qaldırıb.**

Azərbaycanın iqtisadiyyat naziri, Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Şahin Mustafayev Çin Xalq Respublikasının Xarici İşlər Nazirliyi yanında Xarici Siyasət üzrə Məşvərət Qrupunun üzvü Cou Syaopeyin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Bu danışıqlarda "İpək yolu iqtisadi kəməri", " Bir kəmər, bir yol" , "Şərq-Qərb nəqliyyat dəhlizi" layihələrinin ölkəmiz tərəfindən aktiv dəstəkləndiyi və inkişaf etdirildiyi bir daha vurğulanıb və diqqət mərkəzində olub. Azərbaycan Çinin Cənubi Qafqazda əsas ticarət tərəfdaşıdır. 2018-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi 1,3 milyard ABŞ dollarından çox olub. Bu isə Çinin Cənubi Qafqaz ölkələri ilə olan ümumi ticarət dövriyyəsinin 43 faizini təşkil edir.

Qeyd etmək lazımdır ki, iki dövlət arasında ticarət əlaqələrinin daha da genişləndirilməsi üçün imkanlar böyükdür və bu potensialın reallaşdırılması istiqamətində Azərbaycan tərəfi ardıcıl tədbirlər görür. Belə ki, Azərbaycanın Çindəki səfirliyində ticarət nümayəndəsi fəaliyyət göstərir, eləcə də ötən dövrdə Çinin Urumçi, Şanxay və Lucou şəhərlərində Azərbaycanın ticarət və şərab evləri açılıb. Honkonq, Quancou, Urumçi, Şanxay və Pekin şəhərlərinə ixrac missiyaları təşkil edilib. Keçirilmiş biznes forumlar, Azərbaycan şirkətlərinin Çində təşkil olunan beynəlxalq sərgilərdə fəal iştirakı və digər tədbirlər ticarət-iqtisadi əlaqələrin inkişafında əhəmiyyətli rol oynayır. Eyni zamanda, Çin tərəfindən həyata keçirilən idxala dəstək siyasəti Azərbaycanın yüksək keyfiyyətli məhsullarının Çin bazarında təklif olunması üçün əlverişli şərait yaradır.

Azərbaycanda 120-yə qədər Çin kapitallı şirkət qeydiyyata alınıb. Ötən dövr ərzində Azərbaycan tərəfindən Çin iqtisadiyyatına 1,7 milyard ABŞ dolları, Çindən isə Azərbaycana 800 milyon ABŞ dollarından artıq investisiya yatırılıb. Ölkəmizdə dövlət vəsaiti hesabına icra edilən 600 milyon ABŞ dolları dəyərində layihələrdə Çin şirkətləri iştirak ediblər.

Maliyyə sahəsində də əməkdaşlıq perspektivlidir. Belə ki, Azərbaycanın 2016-cı ildə Asiya İnfrastruktur İnvestisiya Bankına üzv olması, bankın TANAP layihəsinə 600 milyon dollar kredit ayırması, Çinin bu layihənin reallaşmasında iştirakı onun gerçəkləşməsinə önəmli köməkdir. Çinin "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun potensialından istifadə olunması iqtisadi sahədə, xüsusilə investisiya, ticarət, tranzit və s. sahələrdə əməkdaşlıq üçün geniş imkanlar açır.

Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun üstünlüklərinin, Azərbaycanın marşrutun inkişaf etdirilməsində gördüyü işlərin, müasir infrastrukturun yaradılmasını əhəmiyyəti olduqca böyükdür. Çindən Avropaya və əks istiqamətdə yüklərin daşınmasında Azərbaycanın nəqliyyat-logistika potensialından istifadə edilməsi səmərəli olmaqla yanaşı, ölkələrimiz arasında əməkdaşlığa da önəmli töhfə verəcəkdir.

İki ölkə arasında turizm sahəsində əməkdaşlıq da inkişaf etməkdədir. Çin vətəndaşlarının "ASAN viza" sistemindən istifadə etməsi ölkəmiz tərəfindən təmin edildikdən sonra ötən il 16 minədək çinli turist Azərbaycana səfər etmişdir. Yaxın illərdə ölkələrimiz arasında hərtərəfli əlaqələrin bu vaxtadək yaradılmış münbit zəmin üzərində inkişafı daha yüksək fayda və qazanc götürməyə təminat yaradacaq.

***Dünyamalı VƏLİYEV,***
***AMEA Şərqşünaslıq İnstitutunun şöbə müdiri,***
***Əfqan MUSAYEV,***
***institutun doktorantı***

Xalq qəzeti.- 2019.- 5 iyul.- S.4.